# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib



4

№ 016 (7426)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

27 fevral 2026-cı il.
Qiymәti 1 manat

# Azərbaycan öz uğurları ilə yeni tarix yazır!



2

# 34 il əvvəlki, 34 il sonrakı XOCALI




5

## Rusiyanın Azərbaycana qarşı sistemli təzyiq strategiyası: TARİXİ-KONSEPTUAL ANALİZ



6

## Başqasına görə zamin durmayın - əmlakınızı əlinizdən ala bilərlər!




8

## "Qalatasaray"a Çempionlar Liqasından FANTASTİK GƏLİR



8

## SOS: süni intellekt kütləvi psixoz yaradır



4

## Türkiyəni də İran oyununa çəkirlər...



5

# Azərbaycan öz uğurları ilə yeni tarix yazır!





***Dünyanın ən inkişaf edən, qüdrətli dövlətlərindən olan Azərbaycan tərəqqi yolunda inamla addımlayır. Azad, demokratik dövlət olaraq iqtisadi, sosial, siyasi, elmi və mədəni sahələrdə yeni-yeni uğurlara imza atır. Azərbaycanın iqtisadi, siyasi gücü, beynəlxalq aləmdə nüfuzlu dövlət olaraq regionun iqtisadiyyatının mənzərəsini dəyişməyə xidmət edən layihələrin təşəbbüskarı olaraq çıxış edir və irəli sürdüyü istənilən layihənin icrasına nail olur. Bu baxımdan artıq Azərbaycan dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu qazanıb.***





Azərbaycan Prezidenti İlham Əliyevin apardığı müdrik siyasət nəinki Azərbaycanımıza, ümumilikdə regiona sosial rifah, sülh və əmin-amanlıq gətirir. 2025-ci ilin avqustun 8-də Ağ evdə baş tutan ABŞ-Azərbaycan ikitərəfli və ABŞ–Azərbaycan–Ermənistan üçtərəfli görüşü və imzalanan sənədlər Prezident İlham Əliyevin dünya siyasətində fenomen şəxsiyyətlərdən olduğunu təsdiqlədi. Bir daha məlum oldu ki, Fateh Sərkərdə, Prezident İlham Əliyev hərbi, siyasi qələbənin banisi olmaqla yanaşı, həm də regionda sabitliyi təmin edə biləcək sülhün banisidir. Regionda sülhün təmin olunmasına xidmət edəcək sənədlərin dünyanın əsas güc mərkəzi hesab olunan ABŞ Prezidenti Donald Trampın iştirakı və imzası ilə rəsmiləşdirilməsi Prezident İlham Əliyev nəinki, regionun, ümumiyyətlə dünyanın ən nüfuzlu söz sahibi olan liderlərdən olduğunu təsdiqləyir. Təbii ki, sülhün əldə olunması bir daha regionumuzda müharibələrin, ən azı lokal toqquşmaların olmayacağından xəbər verir. Sülhün əldə olunması bölgənin iqtisadi cəhətdən inkişafı, tərəqqisi deməkdi. Sülhün daimi və davamlı olması ilə ailələr müharibə baş verə biləcəyi qorxusundan azad olacaqlar. Qurbanlar, dağıntılar, fəlakətli durum baş verməyəcək. Bu, həm Azərbaycan, həm Ermənistan, həm də bütün bölgə üçün xüsusi əhəmiyyətə malik tarixi hadisədir. Qəzzaya dair "Sülh Şurası"nın əsas təsisçilərindən birinin Azərbaycan Prezidenti İlham Əliyevin olması da ölkəmizin liderinin dünyada sülhün və təhlükəsiliyin təmin olunmasın da böyük nüfuz sahib olan liderlərdən olduğunu göstərir.

## Azərbaycan iqtisadi güc mərkəzinə çevrilir

Azərbaycan iqtisadi, sosial sahələr də yeni-yeni nailiyyətlərə imza atmaqla əhalinin sosial vəziyyətlərinin daha da yaxşılaşmasına, məşğulluğunun təmin olunmasına imkanlar yaranır. Azərbaycanda yoxsulluğun səviyyəsinin azaldılması üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə yoxsulluğun real səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə ailə təsərrüfatları sahiblərinin illik anketləşdirilməsi tətbiq olundu. Azərbaycanda yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf üzrə 2 Dövlət Proqramı (2003–2005-ci və 2008–2015-ci illər üçün) qəbul edildi. Bunun nəticəsində son 20 il ərzində yoxsulluğun səviyyəsi, təxminən, 44,7 faizdən 5,2 faizədək azalıb. Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas is¬tiqamətlərindən biri əmək haqqlarının yüksəldiməsi, müxtəlif dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi və vətəndaşlar¬la məmurlar arasındakı münasibətlərdə şəffaflığın artırılması¬dır. Bu məqsədlə 2019-cu ilin mayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyətə başlayan DOST (Davamlı və Operativ Sosial Təminat) Agentliyi yaradılıb. Hazırda 7 DOST mərkəzi fəaliyyət göstərir, 2026-cı ilə qədər onların sayının 17-yə çatdırılması, 55 DOST filialının açılması və beləliklə, bütün ölkə üzrə xidmətlərin əhatə dairəsinin genişlən¬dirilməsi nəzərdə tutulur. DOST mərkəzləri vasitəsilə tam şəffaflıq və vətəndaş məm¬nunluğu əsasında "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 15 istiqamət üzrə 159 xid¬mət göstərilir. 2023-cü il dekabrın 1-nə olan məlumata görə, bu mərkəzlərdə 1,9 milyon nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,1 faiz təşkil edir.

Bu gün Azərbaycan regionun aparıcı iqtisadi gücünə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə bizim deyil, qonşu regionların da inkişafına mühüm töhfəsini verir. Ötən 22 ilin əldə olunan göstəricilərinə əsasən demək olar ki, ölkəmizin iqtisadiyyatına yatırılan investisiyalar 4 dəfə artıb. Ümumilikdə ölkəyə müxtəlif sektorlardan 318,9 milyard dollardan artıq vəsait daxil olub. Bundan başqa, ötən dövr ərzində ölkəmizin əhalisinin nominal gəlirləri 15,6 dəfə, strateji valyuta ehtiyatları isə 2003-cü illə müqayisədə 48,7 dəfə artıb. Xarici borc 9,3 faiz (2023-cü il oktyabrın 1-nə) səviyyədədir, Azərbaycanın strateji valyuta ehtiyatlarının xarici borca nisbəti 10,5 dəfə üstələyir. Göstərilən rəqəmlər Azərbaycanın iqtisadi inkişaf modelinin sa¬bitliyindən xəbər verir və milli iqtisadiyyatın xarici şoklara adap¬tiv və adekvat reaksiyasının bariz nümunəsidir. Bu illər ərzində əsas diqqət özəl sektorun möhkəmləndirilməsinə, biznes mühi¬tinin yaxşılaşdırılmasına yetirilib. Bu çərçivədə sahibkarlığın in¬kişafı üçün əlverişli şəraitin yaradılması istiqamətində mühüm addımlar atılıb. Təkcə sahibkarlara imtiyazlı şərtlərlə ayrılan kre¬ditlərin həcmi 3,01 milyard manatı ötüb.

## "Böyük Qayıdış" uğurlu nəticələr verir

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən dərhal sonra ərazilərdə genişmiqyaslı quruculuq, təmir, tikinti, bərpa işlərinin həyata keçirilməsinə başlanıldı. Dağıdılmış kənd və şəhərlərin yerində qısa müddətdə "Ağıllı kənd"lərin bünövrəsi qoyuldu, 2022-ci il isə azad edilmiş Zəngilanda salınmış ilk Ağalı "Ağıllı kənd"inə qayıdışına başlanğıc ili oldu. 2022-ci il noyabrın 16-da "Azərbaycan Respublika¬sının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. 2021–2023-cü il¬lərdə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həya¬ta keçirilməsinə 7 milyard dollar ayrılıb, 2024-cü ildə dövlət büdcəsindən bu məqsədlər üçün minimum daha 2,4 milyard dollar vəsait yönəldiləcək. 2022-ci il iyulun 19-dan bu günədək 2 şəhərə (Laçın və Füzuli şəhərləri) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) 4 min 516 keçmiş məcburi köçkün qayıdıb, bu, 1134 ailə deməkdir.Azad olunmuş ərazilərdə bu günədək 115 min hektardan çox sahə minalardan və partlamamış sursatlardan təmizlənib.2021-ci ildən indiyə qədər azad ərazilərdə bərpa və quruculuq işlərinə 19 milyard manatdan çox vəsait ayırıb. Bu tədbirlər sayəsində Böyük Qayıdış proqramının icrası sürətlənib, ötən il 32 illik həsrətdən sonra Xocalıya, Şuşaya, Xankəndinə, Laçın, Cəbrayıl və digər ərazilərdə sakinlərin öz doğma yurdalarına qayıdışı gerçəkləşib. Bütövlükdə isə azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Növbəti illərdə qayıdış daha da sürtələnəcək, 2026-cı ilin sonunadək 34 min 500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulur.

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər. Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Memorialla tanış oldular və Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Təbii ki, bütün bunlar aparılan siyasətin düzgün, əsaslı, möhtəşəm olduğuna, qazanılan uğurların və nailiyyətlərin davamlı xarakter daşıyacağına əminlik yaradır.

***İLHAM ƏLİYEV***

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb. Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib. Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.





# Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadacaq Memorial Kompleks

*Prezident İlham Əliyev: “Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük”*

Azərbaycan artıq yeni reallıqlar yaradıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Prezident İlham Əliyevin hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsəni ucaldir, mesajlarını verir, dünya bunu görür və eşidir.








Əlbəttə ki, bu gün biz qalib xalq kimi yaşasaq da ötən illərdə yaşadığımız faciələr tariximizin səhifələrinə həkk olunub və o, tarixi dövr yaddaşımızda qövr edir. Bəşəriyyət tarixinin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində soyqırımı siyasətini sübut edən Xocalı soyqırımından 34 il ötür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər. Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb. Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib. “Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük”. Bu sözləri Prezident İlham Əliyev Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib. Dövlətimizin başçısı bildirib: “Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı”. Dövlət başçısı qeyd edib ki, bu Kompleks (Xocalı Soyqırımı Memorialı – red.) silinməz yaddaşımızın təcəssümü olacaq: “Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “BU GÜN DÖVLƏTİMİZ GÜCLÜ DÖVLƏTDİR, ÖZÜNÜ MÜDAFİƏ ETMƏYƏ QADİR OLAN DÖVLƏTDİR”

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində “Xocalıya ədalət!” kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir. XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək dəhşətli olaydır. 1992-ci ilin qarlı qış günü. Düz 34 il bundan əvvəl dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər. Ermənilərin şəhərə daxil olması nəticəsində Xocalını tərk etmək məcburiyyətində qalan köməksiz insanlar misli görünməmiş xüsusi amansızlıqla qətlə yetirildilər. Düşmən hərbi texnika və qüvvə baxımından bir neçə dəfə çox olduğundan, Xocalı şəhəri işğal edildi. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi, şəhər tamamilə alova büründü. Evlərə-eşiklərə od vuruldu, torpaq al qana qərq edildi. Düşmən rəhm diləyən qocaya, xəstəyə, qadına aman vermədi. Uşaqlar valideynlərinin gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirilirdilər. Aramsız güllə yağışından qurtulub ayağıyalın, başıaçıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qar uçqunlarına düşdü. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə yeksan edildi. Qanlı qırğından sağ qalan əhali dağlara, meşələrə qaçdı. Dinc əhalini təqib edən silahlı ermənilər onları güllələyir, ələ keçənlərə amansız işgəncələrlə divan tuturdular. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. “Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı. Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra “Xocalıya ədalət!” genişmiqyaslı hərəkatına start verdi”, - deyə Prezident bildirib. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər.

Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir. 2020-ci ilin sentyabr–noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı işğaldan azad olundu. Bu gün Xocalı əzəli sakinlərini qarşılayır. Artıq Xocalı sakinləri mərhələli olaraq əzəli yurda qayıdırlar. Bölgədə yaşayış üçün zəruri infrastruktur qurulub, sosial obyektlər istifadəyə verilib. 2024-cü ilin mayın 28-də - Müstəqillik Günündə Xocalı şəhərinə ilk qayıdan sakinlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən evlərin açarlarının təqdim olunması, sakinlərlə səmimi görüş tarixi hadisə oldu. Bu, o deməkdir ki, Böyük Qayıdışın Xocalı mərhələsi uğurla davam edir. Şəhərə qayıdışın başlanmasından sonra soyqırımı qurbanlarının, bütün şəhidlərimizin ruhları rahatdır. Doğma Xocalıya qayıdan sakinlərin sevincinin həddi-hüdudu yoxdur. Bütün xalqımız da bu hadisəyə sevinir. Çünki soyqırımına məruz qalmış Xocalıya həyat qayıdıb. İnsanların doğma yurdlarına qayıdışı ilə həmin torpaqlar yenidən canlanır.

Prezident İlham Əliyevin dediyi kimi, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Beləliklə, doğma Qarabağ torpağının əzəli sakinləri öz yurdlarına geri dönürlər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad olunmuş bütün ərazilərimiz ən müasir səviyyədə yenidən qurulur. Bu torpaqlar dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Azırbaycan xalqına Zəfər yaraşır. Bizim qürurlu və ləyaqətli xalq kimi başımız ucadır. Sonda bir məktəbli kimi qürurla onu bildirmək istəyirəm ki, Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında alıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

***Zümrüd BAYRAMOVA***





# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib



**Fevralın 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan ilə Türkiyə arasındakı bütün dünyaya nümunə olan sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin iki ölkənin liderləri – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək keyfiyyətcə yeni mərhələyə - strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb. Bu gün iki ölkənin bir-birinə qətiyyətli dəstək ifadə etdiyi, Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir" kəlamlarının öz əməli təsdiqini tapdığı vurğulanıb.

2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin ardıcıl olaraq yerinə yetirilməsinin istər ikitərəfli əlaqələrin, istərsə də regionda çoxşaxəli işbirliyinin genişləndirilməsi kontekstində önəmi diqqətə çatdırılıb. Müstəqil, milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanan siyasət həyata keçirərək dünyada söz və nüfuz sahibinə çevrilən iki müttəfiq dövlətin qlobal miqyasda bir-birini fəal şəkildə dəstəkləməsinin ortaq strateji hədəflərin gerçəkləşdirilməsi baxımından əhəmiyyəti xüsusi qeyd olunub.

Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra regionda yeni reallıqların yarandığı, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün milli prioritetlərdən irəli gələn mühüm vəzifələr müəyyənləşdirdiyi vurğulanıb.

Azərbaycan ilə Türkiyənin birgə təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyi, ölkələrimizin birliyinin daha geniş coğrafiyada, o cümlədən Türk dünyasında təhlükəsizlik və əməkdaşlıq faktoru olduğu, eləcə də son illərdə yüksələn güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsinə mühüm töhfələr verdiyi bildirilib.

Görüşdə Türk dövlətləri, o cümlədən etibarlı strateji müttəfiqlər olan Azərbaycan ilə Türkiyə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin gücləndirilməsinin zəruriliyi də vurğulanıb. 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapan vəzifələrin uğurla icra olunduğu qeyd edilərək aktual çağırışlar fonunda ortaq hədəflərə və yeni perspektivlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Partiyalar arasında fikir və təcrübə mübadiləsinin genişləndirilməsi üçün qarşılıqlı səfərlərin öneminin vurğulandığı görüş zamanı AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini Kürşad Zorlu Yeni Azərbaycan Partiyasının nümayəndələrini cari ildə Türkiyədə keçirilməsi nəzərdə tutulan Türk Dünyası Birinci Siyasət Forumuna dəvət edib.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər



**Fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər. Abidənin önünə əklil və gül dəstələri qoyulub, soyqırımı qurbanlarının əziz xatirəsi ehtiramla yad olunub.**




# SOS: süni intellekt kütləvi psixoz yaradır



***Avstraliyalı istifadəçilərin süni intellekt çat-botları ilə qarşılıqlı əlaqələrində psixoz əlamətləri müşahidə olunur. "The Guardian" yazır ki, çərşənbə günü Milli Mətbuat Klubunda çıxışı zamanı Yeni Cənubi Uels Universitetinin süni intellekt üzrə professoru Tobi Uolş süni intellekt yarışının həm buma, həm də məhvə səbəb olacağına, bəzən isə faydaları olacağına inandığını deyib.***

Tobi Uolş Avstraliya hökumətinin süni intellekt üzərində tənzimləməsinin olmamasından ümidsiz olduğunu deyir. Aparıcı süni intellekt mütəxəssisi bəzi avstraliyalıların çatbotlarla qarşılıqlı əlaqələrində psixoz və ya maniya əlamətləri göstərdiyi barədə xəbərdarlıq edir.

Professor çıxışında bildirib ki, son illərdə texnologiyanın ultra-inkişafa başlamasından bəri bəzi yeniliklər onu qəzəbləndirir. "Uşaqlıq xəyallarım həm yaxşı, həm də pis olan bir reallığa çevrilir", - deyə o, çıxışında bildirib. Uolşun çıxışında ABŞ-lı yeniyetmə Adam Reynin ailəsi tərəfindən OpenAI-yə qarşı qaldırılan məhkəmə işi də gündəmə gətirilib.

Qeyd edək ki, Kaliforniyada yaşayan 16 yaşlı yeniyetmə Adam Reynin ata-anası tərəfindən OpenAI və şirkətin CEO-su Sam Altmana qarşı qaldırılıb. Onlar iddia edirlər ki, süni intellekt çat-botu ChatGPT Adam ilə uzun müddət söhbət edərkən ona özünü zərərli davranışlara təhrik edən və depressiv düşüncələri gücləndirən cavablar verib və nəticədə bu, onun özünü öldürməsinə səbəb olub.

Ailə hesab edir ki, ChatGPT yüksək səviyyədə empatiya göstərərək Adamı real həyatdan və real dəstək sistemlərindən uzaqlaşdırıb və ona yalnız "yeganə dostu imiş kimi" davranıb. İddia sənədlərində deyilir ki, o, alqoritm təhlükəsizlik tədbirlərini yaxşı işə salmayıb və özünü öldürmə metodları barədə məlumat verib, bəzən onun niyyətini təsdiqləmiş kimi cavablar verib. Ailə əlavə edir ki, OpenAI bu təhlükəsizlik boşluqları uşaqlar üçün riskli vəziyyət yaradır. Onlar şirkətdən valideyn nəzarəti alətləri, söhbətlərin dayandırılması funksiyaları və daha güclü təhlükəsizlik sistemləri tələb edirlər.

Lakin OpenAI bu iddiaları rədd edib və bildirib ki, təhlükəsizlik tədbirləri mövcuddur (əsasən də yardım xətləri, real dünya resurslarına yönləndirmə), lakin onlar bəzən uzun söhbətlərdə zəifləyə bilər. Şirkət həmçinin yeni yaş təxmin etmə və valideyn nəzarəti sistemləri kimi əlavə tədbirlər üzərində işlədiyini bildirir. Bu iddia süni intellekt və insan psixologiyası, etik təhlükəsizlik və platforma məsuliyyəti arasındakı sərhədləri sınağa çəkən ilk belə böyük işlərdən biridir. Onun nəticəsi AI texnologiyalarına qarşı hüquqi normaların necə formalaşacağına təsir edə bilər.

Professor Tobi Uolş həmçinin bildirib ki, hər həftə bir milyondan çox istifadəçi potensial intihar planı və ya niyyətinin açıq göstəriciləri ehtiva edən mesajlar göndərir. Həftəlik 800 milyon istifadəçisindən 560.000-də psixoz və ya hər hansı "maniya" əlamətləri müşahidə olunub və daha 1,2 milyonu çat-botla potensial olaraq sağlam olmayan əlaqələr qurub.

Uolş maraqlı bir ifadə işlədib: "Sİ cat-botları yaltaqdır". "Onlar yaltaq olmaq üçün nəzərdə tutulub. İstifadəçinin dediklərini təsdiqləmək üçün kodlaşdırılıb. Bu istifadəçini cəlb etmək üçün nəzərdə tutulub. Onlar həmişə açıq sual qoyur və sizi söhbəti davam etdirməyə, daha çox məlumat almağa sövq edir."

***Lalə Mehralı***

# 34 il əvvəlki, 34 il sonrakı XOCALI




***Xocalı faciəsinin 34-cü ildönümündə Xocalı harayı abidəsi önündəyəm: -Bu gün bir başqa qürurla dayanmısan, əziz anam. Haqqın da var dayanmağa. İllərdir ki, vüqarlı duruşuna artıq bir vüqar qarışıb. Bir qərinə olacaqdı ki, bu ucalıqdan seyr edirdin uzaqları. O xəbəri gözləyirdin ki, bir gün küləklər "Xocalı azaddır" sorağını gətirəcək. Sənin də yurd həsrətin, torpaq hicranın sona yetəcək. 31 il ağlamaqdan nurunu itirən gözlərin, illərin acısının izlər saldığı üzün güləcək, gözlərin önündə xocalılıların başına gətirilən müsibətlərin cəzası veriləcək, qisas yerdə qalmayacaq...***

31 il idi ki, hər gün səninlə biz də Xocalıdaydıq: həmin gün, fevralın 25-dən 26-na keçən gecə vəhşi ermənilərin törətdiyi soyqırımı hadisəsinin içərisində idik. Güllə-barana tutulmuşduq. Orada yaralanan, ev-eşiyindən zorla, silah burnunda çıxarılanlardan idik. Əzizlərinin gözü qarşısında öldürülən, dərisi soyulan, gözləri oyulan, əli-qolu, ayağı kəsilənlərdən idik. Donaraq meşələrdə həyatını itirənlərdən idik. Bu müsibətdən salamat qurtarıb, lakin illərlə məcburi köçkün kimi yaşayanlardan, yurd həsrəti çəkənlərdən idik. Torpağını itirib namus, şərəf acısı yaşayanlardan idik.

31 il idi ki, ay ana, səninlə idik. Sənin vüqarın qarşısında baş əyir, bir azərbaycanlı ananın öz balasını necə böyük əziyyətlə, əzmlə qorumasından, düşmən əlinə keçməməsi uçun bağrında gizlətməsindən, namusunu qurtarmaq üçün ölməsini yaşamasından üstün bilməsi kimi imrətamiz istəklərindən örnək alaraq yaşayırdıq. Bütün bunları gənclərə, yeniyetmələrə söyləyərək onların da eyni əxlaqi dəyərdə, düşüncədə olmasına çalışırdıq. Əslində səndəki bu məğrurluq, əzm xalqımıza məxsus olanların təzahürüdür. Bu xalqın hər bir qadını belə bir müsibətlə üzləşərdisə, yalnız sənin kimi edərdi. Çünki qeyrət, namus, iffət, hünər bizim kişilərimiz kimi, qadınlarımızda da eynidir. Onlar kişilərdən heç vaxt geridə qalmayıb. Yeri gələndə at minib döyüşə yollanıb, yeri gələndə silah götürüb düşmən üzərinə gedib, yeri gələndə həyat yoldaşına dayaq olub, yeri gələndə isə evinin xanımı, övladının anası olub.

Budur, ay əziz anam, budur, duruşun da, baxışın da dəyişib. Çünki bu gün Xocalı azaddır. Xocalı düşmən tapdağından azad edilib, anası Azərbaycanın qoynuna qaytarılıb. 2023-cü il sentyabr ayının 20-də milli ordumuzun Xankəndidə apardığı birgünlük antiterror əməliyyatı ilə bir neçə yurd yerimiz kimi, Xocalı da vəhşi vandallardan xilas oldu. Düşmən özü öz ayağı ilə yurdumuzdan çıxıb getdi. Onlara Azərbaycan qanunları çərçivəsində qalıb yaşamaları təklif olundu. Lakin getməyi məsləhət bildilər. Çünki bizdə belə bir atalar misalı var: savaşanda elə savaş, barışmağa üz saxla. Lakin erməni bu üzü saxlaya bilməmişdi. Onun xisləti, acgözlüyü, ürəyində illərlə gəzdirdiyi nifrəti bunu etməyə qoymamışdı.

Beləliklə, azad oldu Xocalı. Dövlətimizin başçısı, Ali Baş Komandan sənin bağrında onun Azərbaycan bayrağını zirvəyə qaldırdı. Elə bir zirvəyə ki, sən bax, buradan-Bakıdan o bayrağı görə bildin. O andaca yurdunun azad olunduğunu öz gözlərinlə gördün. Bu bayrağın dalğalarında 31 il əvvəlki müsibətin qisasını gördün. O dalğalarda hər bir xocalının qanının yerdə qalmadığını, min bir əzab-əziyyətlə qətlə yetirilən insanların ahının alındığını gördün. Bu dalğalarda 2020-2023-cü illərdə bir-birinin ardınca baş verən hadisələrin, 44 günlük Vətən müharibəsinin və birgünlük antiterror əməliyyatının nəticələrini gördün. Bu dalğalar deyirdi ki, 270 ildən artıq bir zamanda ilk dəfədir ki, Azərbaycan öz torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxmış və qalib ölkə olaraq Zəfər çalışmışdır. O dalğalar namusdan, şərəfdən danışır. Deyir ki, artıq başını dik tut, Azərbaycan, bir qarış torpağın da düşməndə qalmadı. Hər qarışı minlərlə şəhidinin hesabına azad olundu. Hər qarışı sağlamlığını itirmiş minlərlə azərbaycanlı balasının hesabına xilas oldu.









O dalğalar söyləyir ki, Azərbaycan cəmi 44 gün ərzində namusunu və şərəfini elə xilas etdi ki, bunun əks-sədası bütün dünyaya yayıldı. O dünyaya ki, sənin-Xocalının harayını illərlə əsla eşitmədi. Gözlərini yumdu, qulaqlarını qapadı, yüzlərlə insanın faciəli şəkildə öldürülməsini, bir xalqa qarşı aparılan soyqırımını göz ardına vurdu. İllərlə deyilməsinə baxmayaraq nədənsə bu həqiqətləri gözlər görmədi, qulaqlar eşitmədi.

Lakin haqq nazilər, lakin üzülməz, deyib atalarımız. 31 il ərzində haqqımız olanların hər biri nazildi, lakin üzülmədi, qırılmadı. Çünki buna yol verməyən Liderimiz vardı. Hər an torpaqlarımızın azad olunması üçün yollar fikirləşən, haqq səsimizi dünyaya yayan, dünyadan bu problemin sülh yolu ilə həll edilməsini istəyən dövlətimizin başçısı vardı. Ölkə iqtisadiyyatının inkişafını reallaşdıran, bununla da ordumuzun intibahına nail olan ölkə başçımız vardı.

Elə bütün bunların sayəsində də biz torpaqlarımızın azad edilməsi üçün hərbi yolu seçəndə yanılmadıq. Güclü ordumuzla Zəfərə doğru irəlilədik. Vətənpərvər gənclərimizin hər biri sinəsini düşmən qarşısına sipər etdi.

Bunlar asanlıqla əldə olunmamışdı, əziz anam. Bunlar üçün uzun illər hazırlıq aparılmışdı. Milli ordumuz qüdrətləndiyi kimi, gənclərimiz də vətənpərvərlik hissi ilə böyüdülmüşdü. Odur ki, qalib gələ bildik. Torpaq sevgisi, namus, şərəf amili bizi böyük Zəfərə aparıb çıxardı.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun əraziləri azad nəfəs alır. Bu gün Xocalı faciəsinin ildönümünü Şuşa, Laçın, Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər, Xankəndi, Xocavənd, Ağdərə, ümumilikdə Azərbaycan hər iki gözündə yaşla anır. Lakin bir gözdən axan yaş Xocalının müsibəti üçündürsə, digər gözdən axan yaş sevinc gözyaşıdır. Çünki biz Xocalı faciəsinin 34-cü ildönümünü onun azadlığı şəraitində anırıq. Xocalı qurbanlarının qisasının alınması, azad Xocalıda bayrağımızın dalğalanması ilə qeyd edirik.

Söz yox ki, tarix çox müharibələrə, savaşlara şahid olub. Bu, bizin də xalqın taleyinə yazılmış bir acı imiş ki, o müharibələri, savaşları biz də yaşayacaqmışıq. Yaşadıq da. Birinci və İkinci Vətən müharibələri minlərlə Vətən övladının həyatını nöqtələsə də, sağlamlığını əlindən alsa da, itkinləri üçün əzizlərinin gözlərini hələ də yollara diksə də, qaçqınlıq, köçkünlük həyatı soydaşlarımızın bir qərinəyə yaxın nəsibi olsa da, sonu Zəfərlə bitdi. Biz zamanın bu sınağından alnıaçıq çıxa bildik. Deməli, böyük xalqıq. Böyük tariximiz var.

Biz zaman və tarix qarşısında mübariz, əzmli bir xalq kimi dayandıq. Tarix və zaman isə qiymətimizi özü verdi. Böyük Zəfərlə, qələbə ilə bizi hədiyyələndirdi. Bizə alnıaçıq yaşamağı, başımızı hər zaman dik tutmağı nəsib etdi.

Əziz anam, bax budur, duruşunda, əzmində bütün bu söylədiklərim var. Odur ki, azad nəfəs al, Xocalı azaddır çünki. Başını daha dik tut, xocalılıların qisası yetərincə alınıb. Sıx övladını sinənə. Çünki Azərbaycan da övladı Xocalını bağrına basıb.

Və bütün bu nail olduqlarımız üçün dövlətimizin başçısının siyasi bacarığını, böyük sərkərdəliyini tarixin səhifələrinə yazaq ki, gələcək nəsillər də xəbərdar olsunlar ki, Azərbaycan necə oğullar verib Vətənə. O oğul ki, sən azad olunandan sonra sinəndən göylərə üçrəngli bayrağımızı qaldırarkən deyirdi: Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm.

Artıq Xocalı digər işğaldan azad edilmiş ərazilərimiz kimi abadlaşdırılır. Xocalılılar artıq doğma yurdlarına qayıdır. 34 il əvvəlki Xocalı... 34 il sonrakı Xocalı... Budur, tarix!

***Mətanət Məmmədova***

---



*Mətləb Salahov: "İrandan sonra Türkiyənin də "dizayn edilməsi" tamamilə gözlənilən plandır"*

# Türkiyəni də İran oyununa çəkirlər...

"Son bir gün ərzində dünya mediasında guya Türkiyə ordusunun İran müharibəsi zamanı öz təhlükəsizliyini qorumaq üçün bu ölkənin ərazisinə daxil olacağı barəsindəki informasiyaların servis edilməsi qətiyyən təsadüfi deyil.

Çünki yerləşdiyimiz bölgə üçün öz yırtıcı maraqları üçün uzunmüddətli planlar quran Ağ Ev bu planlarını daha effektli və sürətlə reallaşdırmaq üçün Türkiyə faktorunu da əsas tutur. Bölgənin iki güclü dövləti olan İran və Türkiyəyəb"sürprizlər" dolu olan hazırlayan hazırkı ABŞ Administrasiyası gələcək illər üçün rəsmi Ankaranı zəiflətmək üçün onu müharibə oyunlarında iştirakçıya çevirmək istəyir. Alınacaqmı?- onu zaman göstərəcək".

Bu barədə SİA-ya açıqlamasında jurnalist ekspert Mətləb Salahov bildirib. M. Salahov əlavə edib ki, artıq Türkiyə XİN yuxarıda qeyd olunan məsələ ilə bağlı açıqlama yayıb və Türkiyə ordusunun İrana daxil olmaq kimi bir planının olmadığını bəyan edib. "Lakin bu cür informasiyanın feyk xəbər kimi istehsal edilib dövriyyəyə buraxılması özü bir siqnaldır. Məncə, Türkiyə rəhbərliyi kifayət qədər ayıq-sayıq siyasət yürütməlidir. Çünki İranın neft-qazını, uran kimi sərvətlərini qamarlamaq üçün gün sayan Ağ Evdə əyləşənlər öz planları üçün Ankaranı rahat buraxmayacaqlar.

Elə təhlükəli oyunlar qurulacaq ki, Türkiyə bu oyunlara çəkilsin, sonrakı mərhələdə elə Türkiyənin özünü də hədəf taxtasına qoyacaqlar. Türkiyənin hazırkı güc və mövqe sahibi olmasını ABŞ daxil olmaqla heç bir Qərb ölkəsi həzm edə bilmir. İrandan sonra Türkiyənin də "dizayn edilməsi" tamamilə gözlənilən plandır"

***Afət Tahirqızı***

# Rusiyanın Azərbaycana qarşı sistemli təzyiq strategiyası: TARİXİ-KONSEPTUAL ANALİZ

***Cənubi Qafqaz geosiyasi baxımdan Avrasiya məkanının ən həssas bölgələrindən biridir. Bu region üzərində nəzarət tarix boyu imperiya siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Rusiya imperiyası, Sovet İttifaqı və müasir Rusiya Federasiyası üçün Azərbaycan yalnız coğrafi məkan deyil, həm də strateji enerji resursları, nəqliyyat dəhlizləri və geosiyasi təsir nöqtəsi kimi çıxış etmişdir. Bu baxımdan Rusiyanın Azərbaycana münasibətdə siyasəti epizodik deyil, davamlı, sistemli və çoxşaxəli təsir strategiyası kimi xarakterizə olunur. Bu strategiya hərbi, siyasi, demoqrafik, iqtisadi və informasiya alətlərinin kompleks tətbiqinə əsaslanmışdır.***



*Bəhruz QULİYEV, "Səs" qəzetinin baş redaktoru*

### 200 illik tarix

Rusiya-Azərbaycan münasibətləri iki əsrdən artıq tarixi bir mərhələni əhatə edir. Bu münasibətlərdə həm əməkdaşlıq, həm də geosiyasi rəqabət elementləri paralel şəkildə mövcud olub. Tarixi gerçəklik ondan ibarətdir ki, region daim böyük güclərin maraq dairəsində yerləşib və imperiya siyasəti müxtəlif formalarda özünü göstərib. Dünənin mirası, bu günün reallıqları və gələcəyin perspektivləri məhz bu kontekstdə qiymətləndirilməlidir.

XIX əsrin əvvəllərində Cənubi Qafqaz uğrunda Rusiya-Qacar qarşıdurması regionun taleyini dəyişdi. 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi nəticəsində Azərbaycan torpaqları iki yerə bölündü və şimal hissə Rusiya imperiyasının tərkibinə qatıldı. Bu mərhələ, yeni mərkəzdən idarəetmə və inzibati nəzarət, demoqrafik dəyişikliklər və iqtisadi resursların, xüsusilə neftin imperiya maraqlarına uyğun istismarı dövlət siyasətinin klassik xüsusiyyətlərini özündə daşıyırdı. XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı dünyanın aparıcı neft mərkəzlərindən birinə çevrildi və bu, Rusiyanın regiona marağını daha da gücləndirdi.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan sovetləşdirildi və Sovet İttifaqı tərkibinə daxil oldu. Bu dövrdə formal olaraq respublika statusu verilsə də, real siyasi qərarlar Moskvada qəbul edilirdi. Sovet mərhələsində sənayeləşmə və təhsil sistemi inkişaf etdirilsə də milli kimlik üzərində ideoloji nəzarət mövcud idi. Qarabağ məsələsi inzibati qərarlarla gələcək münaqişənin əsasını qoydu. Bu dövr imperiya siyasətinin daha mərkəzləşdirilmiş və ideoloji forması kimi xarakterizə edilə bilər.

### Geosiyasi balans və praqmatik əməkdaşlıq

Sovet İttifaqının dağılmasına gətirib çıxaran hadisələrdən sonra Azərbaycan müstəqilliyini bərpa etdi. Amma Moskva baş verənlərlə razılaşmadı, postsovet məkanında təsirini qorumaq və genişləndirmək üçün 1991-ci ildən sonra çoxşaxəli strategiya həyata keçirmək planını realizə etməyə başladı. Bu strategiya hərbi, siyasi, iqtisadi və informasiya alətlərinin kombinasiyasına əsaslanırdı. Rusiya 1992-ci ildə yaradılan və sonradan institusionallaşan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı vasitəsilə bəzi postsovet ölkələrini öz təhlükəsizlik orbitində saxlamağa çalışdı. Bu təşkilat hazırda Moskvanın regionda hərbi legitimlik aləti kimi çıxış edir.



Rusiya Ermənistanda (Gümrü bazası), Qırğızıstanda, Tacikistanda, eləcə də separatçı bölgələrdə öz varlığını hərbi bazaları, silahlı qüvvələri ilə təqdim edir. Bu, təhlükəsizlik asılılığı yaratmaq üçün effektiv vasitələrdəndir. Rusiya postsovet məkanında, Abxaziya, Cənubi Osetiya və Dnestryanı kimi bir sıra münaqişələrdən sui-istifadə edərək bu regionlarda əsas söz sahibi olmağa hələ də iddialıdır. Bu münaqişələr Moskva üçün təsir rıçağı rolunu oynayır. Digər tərəfdən, Rusiya enerji resurslarından siyasi təsir vasitəsi kimi istifadə edir. "Gazprom" və digər dövlət şirkətləri qaz və neft təchizatı üzərindən bir sıra ölkələrə təsir göstərir. 2015-ci ildə yaradılan Avrasiya İqtisadi İttifaqı (Aİİ) üzdə iqtisadi inteqrasiyanı dərinləşdirmək və postsovet ölkələrini vahid bazarda birləşdirmək məqsədini bəyan etsə də, bu da təsir rıçaqlarından biri kimi işarələnir.

Digər bir məsələ siyasi və diplomatik təsirdir. Rusdilli əhali və "soydaşların müdafiəsi" adı altında yenilənmiş köhnə konsepsiya da Moskvanın əsas oyunu, təxribatlar törətmək üçün katalizatorudur. Məhz seçkilər və daxili siyasətə dolayı təsirlər, o cümlədən regional elitalarla sıx əlaqələr vasitəsilə nəzarəti həyata keçirən Rusiya bunu 2008-ci ildə Gürcüstan ilə müharibə, 2014-cü ildə Krım hadisələri ilə sübut etdi və Kremlin sərt güc tətbiq etməkdən çəkinmədiyini göstərdi.

Moskva postsovet məkanında rusdilli medianın inkişafında maraqlı olduğunu heç vaxt gizlətmir. Çünki bu informasiya məkanı onun "yumşaq güc"üdür. Rusdilli məktəblərdə təhsil və mədəniyyət proqramları, pravoslav kilsəsi və mədəni bağlar üzərindən həyata keçirilən siyasi mexanizmlər postsovet ölkələrində ictimai rəyə təsir göstərmək üçün istifadə edilirdi və bu gün də buna cəhdlər edilir.

### Klassik imperiya üsulları

Bu gün "mərkəzdənqaçan" postsovet ölkələrinin NATO və Aİ ilə yaxınlaşmasını Rusiya öz təhlükəsizliyinə təhdid kimi qiymətləndirir. Ukrayna, Gürcüstan və bu gün Ermənistanın atdığı addımlar Moskvanın daha sərt reaksiyasına səbəb olur. Azərbaycan zatən bu dairədən birdəfəlik çıxıb. Kremlin çabaları isə "daldan atılan daş " el məsəlinə bənzəyir. Bir sözlə, Rusiya postsovet məkanında təsirini qorumaq üçün klassik imperiya üsullarını müasir alətlərlə birləşdirmək iddiasından əl çəkmir.

Hərbi mövcudluq, enerji asılılığı, inteqrasiya layihələri, informasiya təsiri və münaqişələr üzərindən nəzarət kimi strategiyalar bəzi ölkələrdə uğurlu olsa da, digərlərində əks-effekt yaradaraq Qərbə inteqrasiyanı sürətləndirir. Gələcəkdə isə bu təsirin davamlılığı region ölkələrinin suveren qərarları və qlobal güc balansından asılı olacaq.

Müasir mərhələdə Rusiya ilə müstəqil-postsovet ölkələr arasında münasibətlər təhlükəsizlik, enerji və nəqliyyat, balanslaşdırılmış xarici siyasətlə xarakterizə olunur. Rusiya Ermənistanda hərbi-siyasi aktor olaraq qalsa da, Azərbaycan müstəqil enerji siyasəti yürüdür və alternativ marşrutlar formalaşdırır. Azərbaycan həm Rusiya, həm Qərb, həm də regional güclərlə paralel münasibətlər saxlayır. 2020-ci il İkinci Qarabağ müharibəsi və sonrakı proseslər Rusiyanın regiondakı rolunda korrektələr etdi. Moskvanın bir tərəfdən vasitəçi, digər tərəfdən isə təsir mexanizmlərinə malik aktor kimi çıxış etmək istəyi onun regionu itirməsini sürətləndirməklə nəticələndi.

Regional inteqrasiya və yeni təhlükəsizlik arxitekturası Cənubi Qafqaz ölkələrinin daha müstəqil platforma yaratmasına təkan verib. Bu gün Azərbaycan üçün əsas prioritet dövlət suverenliyinin qorunması, iqtisadi və enerji müstəqilliyinin gücləndirilməsi, çoxvektorlu diplomatiyanın davam etdirilməsidir. Rusiya–Azərbaycan münasibətlərində tarixi gerçəklik imperiya siyasətinin müxtəlif formalarda təzahür etdiyini göstərir. Çar dövründən sovet mərhələsinə, oradan isə müasir geosiyasi balans siyasətinə qədər münasibətlər dəyişsə də, əsas strateji maraqlar sabit qalıb.

Bu gün münasibətlər nə tam qarşıdurma, nə də tam ittifaq xarakteri daşıyır. Onlar daha çox praqmatik balans üzərində qurulub. Gələcək isə Azərbaycanın milli maraqları, regional güc balansı və qlobal siyasi transformasiyalar fonunda formalaşacaq.

### İşğal, parçalama və demoqrafik transformasiya

Rusiya-Azərbaycan münasibətlərinin indiki şəkillənməsinə səbəb olan faktları üzə çıxarmaq üçün tarixə müraciət etməyimiz yerinə düşər. XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqaza ekspansiyası Azərbaycanın tarixi inkişaf trayektoriyasını kəskin şəkildə dəyişdirdi. Gülüstan müqaviləsi və Türkmənçay müqaviləsi nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü və şimal ərazilər imperiyanın tərkibinə qatıldı. Bu, yalnız ərazi itkisi deyil, həm də siyasi subyektivliyin ləğvi idi.

Rusiya imperiyası işğal olunmuş ərazilərdə klassik müstəmləkə siyasətindən istifadə edərək yerli idarəçilik institutlarının üstündən xətt çəkdi, hərbi-administrativ idarəetmə tətbiq etdi və regionun etnik strukturunu dəyişdirdi. Xüsusilə erməni əhalinin İran və Osmanlı ərazilərindən köçürülməsi strateji demoqrafik mühəndislik idi. Bu siyasət gələcək etnik qarşıdurmalar üçün zəmin yaratdı və Qarabağ məsələsinin ilkin konturlarını formalaşdırdı. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti isə regionda müstəqil dövlətçilik ənənəsinin bərpası idi. Lakin bu dövlətin mövcudluğunu Rusiya heç cür qəbul etmirdi. 1920-ci ildə bolşevik Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan işğal edildi. Bu hadisə milli suverenliyin ləğvi, siyasi elitanın fiziki məhvi, iqtisadi resursların mərkəzləşdirilməsi ilə nəticələndi. Sovet hakimiyyəti faktiki olaraq Azərbaycanın siyasi qərarvermə imkanlarını tam şəkildə Moskvaya tabe etdi.

Sovet dövründə yaradılmış "Dağlıq Qarabağ Muxtar Vilayəti" Moskvanın "parçala və hökm sür" siyasətinin klassik nümunəsi idi. Bu modelin əsas xüsusiyyətləri süni inzibati sərhədlər, etnik ziddiyyətlərin saxlanılması, mərkəzdən asılılığın qorunması üzərində formalaşmışdı. 1980-ci illərin sonlarında SSRİ zəiflədikdə bu "dondurulmuş konflikt" aktiv fazaya keçdi. Yaxın tariximizdən də bəlli olur ki, Rusiyanın bu mərhələdə siyasəti ikili xarakter daşıyırdı. Münaqişəni tam həll etməmək və regionda təsir rıçağı kimi istifadə etmək. Beləliklə, Qarabağ problemi Moskvanın əlində geosiyasi alətə çevrildi.

### Rusiyanın növbəti cinayəti – 20 Yanvar

1990-cı ildə baş verən 20 Yanvar faciəsi Sovet imperiyasının dağılma mərhələsində güc nümayişinin kulminasiya nöqtəsi idi. Sovet ordusunun Bakıya yeridilməsi mülki əhaliyə qarşı silahlı zorakılıq, milli azadlıq hərəkatının boğulması, psixoloji intimidasiya məqsədi daşıyırdı. Bu hadisə imperiya idarəetməsinin son mərhələsində belə zor faktorunun əsas alət olduğunu göstərdi.

*Ardı Səh. 7*

# Rusiyanın Azərbaycana qarşı sistemli təzyiq strategiyası: TARİXİ-KONSEPTUAL ANALİZ

Əvvəli-Səh-6

20 Yanvar hadisələri Sovet İttifaqı rəhbərliyinin, xüsusilə də Mixail Qorbaçovun birbaşa planı və erməni lobbisi ilə birgə fəaliyyəti nəticəsində reallaşdı. Bakıya qoşun yeridildi. Rəsmi səbəb kimi "ictimai asayişin bərpası" göstərilsə də, faktiki olaraq bu addımın səbəbləri daha dəhşətli idi. Yanvar cinayəti Rusiyanın imperiya xarakterindən bir addım da geri çəkilmədiyini göstərdi və Azərbaycanda güclənən müstəqillik hərəkatını və siyasi etirazları boğmaq məqsədi daşıyırdı.

Nəticədə çox sayda dinc sakin həlak oldu, yüzlərlə insan yaralandı. Bu barədə siyasi qərar, fövqəladə vəziyyətin elan olunması və qoşun yeridilməsi qərarı Moskvada qəbul edilmişdi. Hərbi əməliyyatı SSRİ Müdafiə Nazirliyi və Daxili İşlər strukturları həyata keçirmişdi. Hadisədən əvvəl Bakıda televiziya qülləsinin enerji bloku partladılmış, informasiya yayımı dayandırılmışdı. Azərbaycan Respublikasının rəsmi mövqeyinə görə, bu hadisə sovet rəhbərliyi tərəfindən törədilmiş hərbi-siyasi cinayət idi.

20 Yanvar hadisəsi Azərbaycan tarixində müstəqilliyə aparan dönüş nöqtələrindən biri hesab olunur. 1994-cü ildə Azərbaycan Parlamenti hadisəyə siyasi-hüquqi qiymət verərək onu hərbi təcavüz və cinayət kimi tanımışdır. Hər il 20 Yanvar ümumxalq hüzn günü kimi qeyd edilir.

### Rusiya ordusu Xocalı qətliamında...

1992-ci ildə baş vermiş Xocalı soyqırımı Qarabağ müharibəsinin ən faciəli epizodlarından biridir. Bu hadisə ilə bağlı müxtəlif mənbələrdə keçmiş sovet ordusunun bölmələrinin iştirakı barədə təkzibedilməz faktlar var. Bunlar münaqişənin yalnız lokal deyil, həm də beynəlxalq və post-sovet hərbi strukturların təsiri altında baş verdiyini göstərir. Xocalı soyqırımı 1992-ci ilin 25–26 fevral tarixində baş verib. Həmin gecə şəhər erməni silahlı qüvvələri tərəfindən hücuma məruz qalıb. Şəhərdən çıxmağa çalışan mülki azərbaycanlılara atəşə tutulub. Rəsmi məlumata görə, 613 nəfər həlak olub (63 uşaq, 106 qadın, 70 qoca), yüzlərlə insan yaralanıb və əsir götürülüb. Azərbaycan və dünyanın bir çox ölkələri bu hadisəni soyqırımı kimi qiymətləndirir.

Rusiyanın Xocalı qətliamında iştirakı məsələsinə gəlincə, hadisə zamanı bölgədə keçmiş SSRİ ordusunun hissələri mövcud idi. Xüsusilə, 366-cı motoatıcı alay həmin dövrdə Xankəndi şəhərində yerləşirdi. Alayın bəzi hərbçiləri və texnikası hücumda iştirak edib və erməni silahlı dəstələrinə dəstək verib. Rusiya tərəfi isə dövlət səviyyəsində hadisədə rəsmi iştirakını qəbul etmir. Tarixçilər və beynəlxalq araşdırmalar göstərir ki, SSRİ dağıldıqdan sonra bölgədə nəzarətsiz qalan silah və hərbi hissələr münaqişənin gedişinə təsir göstərib. 366-cı alay sonradan bölgədən çıxarılıb və şəxsi heyətin bir hissəsinin erməni tərəfinə qoşulduğu barədə məlumatlar var.

### 366-cı alay kimi təmsil edirdi?

366-cı motoatıcı alay keçmiş Sovet İttifaqı ordusuna məxsus hərbi hissə idi. SSRİ dağıldıqdan sonra alay faktiki olaraq Xankəndi şəhərində yerləşirdi. Şəxsi heyətin əhəmiyyətli hissəsinin erməni əsilli zabit və hərbçilərdən ibarət idi. 1992-ci ilin martında, yəni Xocalıda baş verən qanlı hadisələrdən sonra alay bölgədən çıxarılmışdı və sonradan ləğv edilmişdi. Azərbaycanın rəsmi mövqeyinə görə, hərbi texnika və silah dəstəyi – 366-cı alayın zirehli texnikası və ağır silahları Xocalıya hücumda istifadə olunmuşdur. Şəxsi heyətin iştirakı – Alayın bəzi zabit və əsgərlərinin birbaşa əməliyyatda iştirak etdiyi şahid ifadələri ilə tam olaraq sübuta yetirilib.

SSRİ dağıldıqdan sonra bölgədə yerləşən hərbi hissələrin Rusiyanın mərkəzi komandanlığı tərəfindən bilərəkdən, məqsədli şəkildə effektiv nəzarətdə saxlanılmaması silah və texnikanın münaqişə tərəfi kimi ermənilərin əlinə keçməsinə şərait yaratmışdı. Bəzi rus mənbələrində alayın bu hadisələrdə rəsmi şəkildə iştirak etmədiyi deyilsə də, danılmaz faktlar ortadadır. Hərbçilərin bəziləri fərdi qaydada ermənilər tərəfdə döyüşdüyünə dair qeydlər kifayət qədərdir, alayın bütün şəxsi heyətinin iştirak etdiyi əməliyyatlar da az deyil. Azərbaycan tərəfinin və bir sıra beynəlxalq mənbələrin məlumatına görə, hücum Ermənistan silahlı qüvvələri tərəfindən həyata keçirilmiş, əməliyyatda keçmiş SSRİ (Rusiya) ordusunun 366-cı motoatıcı alayının şəxsi heyəti iştirak etmişdir.

Əslində Azərbaycanın I Qarabağ müharibəsində məğlub duruma düşməsində Rusiyanın və onun regionda yerləşdirdiyi hərbçilərinin rolu böyükdür.

***Rusiya regionda təsirini itirməmək üçün hələ ötən əsrin sonon illiyində idarə olunan qeyri-sabitlik, ikili siyasət, enerji və təhlükəsizlik rıçaqları yeni strategiya tətbiq edib. Qarabağ münaqişəsi uzun müddət "dondurulmuş konflikt" kimi saxlanılıb. Ermənistanla hərbi müttəfiqlik, Azərbaycana silah satışı kimi yeni model regionda balansı Rusiya nəzarətində saxlamağa xidmət edib.***

### "İdarə olunan qeyri-sabitlik" siyasəti nədir?

"İdarə olunan qeyri-sabitlik" termini beynəlxalq münasibətlərdə bir dövlətin qonşu və ya təsir dairəsindəki bölgələrdə münaqişə və ya siyasi gərginliyi tam həll etmədən, idarə olunan səviyyədə saxlayaraq təsir rıçaqlarını qoruması kimi izah olunur. Bu anlayış rəsmi doktrina kimi elan edilməsə də, bəzi analitiklər Rusiyanın postsovet məkanındakı davranışını belə xarakterizə edirlər.

Bu yanaşmanın iddia edilən məqsədləri həmin ölkələrin təhlükəsizlik və xarici siyasət qərarlarına təsir göstərmək, Qərb institutlarına, o cümlədən NATO və Avropa İttifaqına inteqrasiyanı çətinləşdirmək, regional vasitəçi və ya "təhlükəsizlik təminatçısı" rolunu saxlamaqdır. Moldova ərazisindəki Dnestryanı, Gürcüstandakı Abxaziya və Cənubi Osetiya, Ukraynadakı Donbas və 2023-cü ilə qədər Azərbaycandakı "Dağlıq Qarabağ" kimi bölgələrdə Rusiya hərbi mövcudluq saxlayıb və ya sülhməramlı missiyalarla təsirini davam etdirib. Həmçinin yerli separatçı qurumlara siyasi, iqtisadi və ya təhlükəsizlik dəstəyi göstərib. Münaqişələrin "tam həllini" sürətləndirməkdə maraqlı olmayıb.

Rusiya isə bunu fərqli təqdim edib. Rus rəsmiləri öz siyasətlərini "regional sabitliyin qorunması", "rusdilli əhalinin müdafiəsi" və "təhlükəsizlik balansının saxlanması" kimi izah edirlər. Amma "ikili standartlar"dan çıxış edən Rusiyaya qarşı səsləndirilən əsas ittihamlar ərazi bütövlüyü prinsipi, beynəlxalq hüququn pozulması olsa da, Moskva öz addımlarını fərqli tərəfdən əsaslandırıb və bu gün də ona cəhd edir. Bölgədəki münaqişələrin yaranması və davam etməsi çoxfaktorludur və etnik gərginliklər, sovet mirası, yerli siyasi proseslər, regional güclərin rəqabəti və Qərb–Rusiya münasibətləri bu proseslərə təsir edib.

Rusiya regionda təsirini itirməmək üçün hələ ötən əsrin son on illiyində idarə olunan qeyri-sabitlik, ikili siyasət, enerji və təhlükəsizlik rıçaqları yeni strategiya tətbiq edib. Qarabağ münaqişəsi uzun müddət "dondurulmuş konflikt" kimi saxlanılıb. Ermənistanla hərbi müttəfiqlik, Azərbaycana silah satışı kimi yeni model regionda balansı Rusiya nəzarətində saxlamağa xidmət edib. Üstəlik enerji marşrutları və təhlükəsizlik məsələləri Moskvanın əsas təsir alətləri olaraq qalıb. Müasir dövrdə təsir yalnız hərbi vasitələrlə məhdudlaşmır. Rusiya müxtəlif "yumşaq güc" alətlərindən istifadə edib və bu gün də edir.

### Rusiyanın davam edən təxribatları

***AZAL təyyarəsinin vurulması***

25 dekabrın 2024-cü ildə Bakı-Qrozni reysi ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Rusiya hava məkanında vuruldu və təxminən 38 nəfər həlak oldu. Bu qəzada təyyarə Rusiya Hava Hücumundan Müdafiə sistemləri tərəfindən atılan raketlərin təsiri altında qəzaya düşdüyü bildirilir. Başlanğıcda Moskva tərəfi bu insidenti "tragik təsadüf" kimi qiymətləndirdi, lakin Vladimir Putin 2025-ci ilin oktyabrında bu insidentin Rusiya hərbi hava müdafiə sistemləri ilə bağlı olduğunu açıq şəkildə qəbul etdi və məsul şəxslərin cəzalandırılacağına və kompensasiya veriləcəyinə söz verdi.

Azərbaycan tərəfi isə məsələni sadəcə "qəza" deyil, həm hüquqi məsuliyyət, həm də Rusiyanın olayın səbəblərini bilərəkdən örtbasdır etməsi və lazımi araşdırma aparmaması, siyasi məsuliyyət daşıması kimi qiymətləndirdi. Və hadisə Azərbaycan–Rusiya münasibətlərində ciddi gərginlik yaratdı, iki ölkə arasında dialoqlar pozuldu. Azərbaycan diasporasına qədər uzanan təxribatlar Moskvanın milli və dini siyasətində ayrıseçkiliyi, ikili standartları bir daha üzə çıxardı.

Son dövrlərdə, xüsusilə AZAL təyyarəsi ilə bağlı gərginlikdən sonra Moskva–Bakı münasibətlərində həssaslıq artmışdı. Əgər hansısa qüvvələr Azərbaycanla Rusiya arasında münasibətləri daha da gərginləşdirmək istəyirdisə, belə təxribat qarşılıqlı ittihamların artmasına, informasiya müharibəsinin dərinləşməsinə, geosiyasi balansın dəyişməsinə səbəb ola bilərdi.

### "5-ci kolon"un dövlət çevrilişinə cəhdində Rusiya izi

Azərbaycanda media orqanları və siyasətçilərin "5-ci kolon" ifadəsindən istifadə edərkən hansı ölkəyə işarə vurduqları yeni deyil. Rusiya ilə əlaqəli olduğu iddia edilən bu şəxslər əksər hallarda Azərbaycanın daxili işlərinə xarici təsir göstərmək cəhdləri, gizli agent şəbəkələri və siyasi manipulyasiya kimi kontekstlərdə qabardılır. "Ramiz Mehdiyev işi"ndə də Rusiyanın adı qabarıq şəkildə keçir. 2025-ci ilin payızında bəzi xəbərlərdə Ramiz Mehdiyevin "Rusiya dəstəyi ilə çevriliş planı hazırlaması" faktı ortaya çıxdı. Keçmiş dövlət məmuru DTX-nin istintaqına cəlb edildi. Buna görə Mehdiyev ev dustaqlığına alındı və ona qarşı "dövlətə xəyanət" və "hakimiyyəti zorla ələ keçirməyə cəhd" ittihamları irəli sürüldü.

Bir sıra mənbələrdə isə bu iddialar "Rusiya mexanizmləri tərəfindən Azərbaycanda təsir şəbəkəsi qurmaq cəhdləri" kimi şərh olunub, bəzi siyasətçilər isə bunu "Rusiya beşinci kolonunun elementi" adlandırıblar. Radikal müxalif partiyanın sədri Əli Kərimli də bu çərçivədə digərləri ilə birlikdə hakimiyyəti zorla dəyişdirmə iddialarında adı hallananlardandır. O, hakimiyyəti devirmək, bəlli xarici ölkənin (yəni Rusiyanın) istəklərinə uyğun, onun çətiri altına girmiş bir rejimin qurulmasına çalışıb və bunun üçün cəmiyyətə "mənim düşmənim" deyə təqdim etdiyi Ramiz Mehdiyevin qurduğu ssenaridə baş rollardan birinə sahiblənib. Yəni əslində onlar əqidə dostu olaraq dövlətə və xalqa qarşı çıxıblar.

### Vaşinqton təxribatları

Ən yeni xəbərlərdə bəzi müstəqil medianın və onlayn araşdırmaların verdiyi məlumatlara görə, 2026-cı ilin fevralında Vaşinqtonda bir qrup radikal şəxsin Azərbaycan prezidentinə qarşı təxribat xarakterli hərəkətlər etdiyi, qeyri-etik ifadələr səsləndirdiyi və mühafizə olunan əraziyə daxil olmağa çalışdığı qeyd olunur. Bəzi mənbələr bu cür aksiyaların arxasında Rusiya xüsusi xidmət orqanlarının agentləri və ya təhrikçi elementlərin olduğunu yazır. Bunun səbəbi kimi isə Azərbaycan–Rusiya münasibətlərində yaranmış gərginlik və qarşıdurmanı daha geniş geosiyasi kontekstdə istifadə etmə niyyəti göstərilir. Rusiya ilə bağlı iddiaların bir hissəsi rəsmi diplomatik kanallar, hüquqi prosedurlar və beynəlxalq araşdırmalar vasitəsilə təsdiqlənib.

Vaşinqtonda Azərbaycan prezidentinin səfəri zamanı baş verən təxribat xarakterli insidentlərlə bağlı rəsmi və hüquqi yekun nəticələr ictimaiyyətə tam açıqlanmasa da, motivlər barədə danışarkən yalnız siyasi analiz çərçivəsində yanaşmaq mümkündür. Mümkün məqsədlər arasında beynəlxalq imicə zərbə vurmaq prioritet təşkil edir. Belə aksiyaların əsas məqsədlərindən biri Azərbaycan rəhbərliyini beynəlxalq müstəvidə çətin vəziyyətdə göstərmək, ABŞ siyasi dairələri və media məkanında neqativ fon yaratmaq, səfərin diplomatik gündəmini kölgədə qoymaqdır. Xüsusilə də Vaşinqton kimi siyasi mərkəzdə baş verən insidentlər qlobal informasiya təsiri yarada bilir. İkinci bir məsələ Azərbaycan–ABŞ münasibətlərində gərginlik yaratmaqdır. Planın baş tutmasında mümkün məqsədlərdən biri təhlükəsizlik zəifliyi görüntüsü formalaşdırmaq, iki ölkə arasında etimadı zədələmək, diplomatik əməkdaşlığa xələl gətirmək idi. Belə hallarda hədəf təkcə konkret şəxs yox, iki dövlət arasındakı münasibətlər olur.

Rusiyanın xüsusi xidmət orqanlarının Avropada özünə yurd salmış "söyüş blogerləri" adlanan xəyanətkarlarla birgə hərəkət etməsi, onları Azərbaycan əleyhinə təşkilatlandırması, hakimiyyət nümayəndələrinə qarşı ən çirkin üsullardan istifadə, onların ailə üzvlərinin təhqir edilməsi Kremlin nə qədər cılızlaşdığını, artıq məhv olduğunu göstərir. Bu hadisələr bir daha onu göstərir ki, Rusiyanın təbliğat maşını paslanıb, çərxifələyi geri fırlanır. "Söyüş blogerləri"ndən istifadə, onların ümidinə qalmaq, o zümrənin hesabına siyasət qurmaq ölüm ayağında son çırpıntılara bənzəyir. Rusiya onsuz da təklənib, qlobal Qərbin qarşısında ölüm-qalım imtahanı verir. Azərbaycanın timsalında qonşularına qarşı təxribat əməllərini artırmaq Moskvaya heç bir üstünlük qazandırmayacaq, əksinə aqibəti sələfi SSRİ kimi ola bilər.

Bəzi analitik yanaşmalarda "5-ci kolon" anlayışı məhz bu təsir mexanizmlərinin tərkib hissəsi kimi izah olunur. Tarixi və müasir faktların müqayisəli təhlili göstərir ki, Rusiya müxtəlif dövrlərdə fərqli alətlərdən istifadə etsə də, əsas məqsəd - Cənubi Qafqaz üzərində geosiyasi dominantlığın qorunması dəyişməz qalır. Azərbaycan isə müstəqillik əldə etdikdən sonra hərbi və siyasi potensialını gücləndirərək, balanslı xarici siyasət yürüdərək, regional layihələrdə aktiv iştirak edərək bu təsirləri məhdudlaşdırmağa çalışır. Müasir mərhələdə əsas məsələ tarixi təcrübədən nəticə çıxararaq milli maraqları qoruyan strateji dayanıqlılığı modelinin formalaşdırılmasıdır.

SON SƏHİFƏ
SƏS
27 fevral
2026-cı il

# Sosial mediada canlı efirlər: şəffaf və operativ kommunikasiya modeli

***Müasir informasiya dövründə ictimaiyyətlə əlaqələr artıq təkcə rəsmi açıqlamalar və yazılı məlumatlarla məhdudlaşmır. İnsanlar informasiyanı daha sürətli, daha şəffaf və daha səmimi formada almaq istəyirlər. Məhz bu səbəbdən canlı yayımlar sosial şəbəkələrdə müasir PR strategiyasının ən təsirli alətlərindən birinə çevrilib.***



*Dilarə Zamanova*
*Mərkəzi Gömrük Hospitalının PR üzrə mütəxəssisi*

Canlı yayım sadəcə video format deyil. Bu, auditoriya ilə birbaşa ünsiyyət, qarşılıqlı etimad və açıq dialoq platformasıdır. Ənənəvi kommunikasiya birtərəfli məlumat ötürməyə əsaslanırdısa, canlı efir sual-cavab, fikir mübadiləsi və real zamanlı reaksiya imkanı yaradır. Bu isə PR-ın əsas prinsipi olan qarşılıqlı ünsiyyət modelini gücləndirir.

### Etimadın formalaşmasında canlı ünsiyyətin rolu

Xüsusilə səhiyyə sahəsində insanlar etibarlı və dəqiq məlumat axtarışındadırlar. Həkimlərin və mütəxəssislərin sosial şəbəkələr vasitəsilə canlı çıxış etməsi, sualları birbaşa cavablandırması və mürəkkəb tibbi mövzuları sadə dildə izah etməsi cəmiyyətdə güvən yaradır. Canlı efirdə mimika, səs tonu və təqdimat üslubu da mesajın qəbuluna təsir edir. Bu isə yazılı mətndən fərqli olaraq daha emosional və daha təsirli kommunikasiya imkanı verir. Peşəkar PR yanaşmasına görə, hər bir kommunikasiya fəaliyyəti planlı və məqsədyönlü olmalıdır. Canlı yayım da istisna deyil. Əvvəlcə maarifləndirmə nə məqsəd daşımasını müəyyənləşdirmək lazımdır. Məqsəd aydın olduqda mesaj da daha təsirli olur.

Canlı yayımın texniki tərəfi də az əhəmiyyət daşımır. Aydın səs, düzgün işıqlandırma, səliqəli fon və rahat çıxış mühiti peşəkarlıq göstəricisidir. Xüsusilə tibbi müəssisələr üçün vizual səliqə və rəsmi atmosfer etimad faktorunu artırır. İzləyici ilk saniyələrdə qərar verir: izləsin, yoxsa keçsin. Buna görə təqdimatın estetik və texniki səviyyəsi vacibdir. Dezinformasiya və ya yanlış məlumat yayıldığı hallarda canlı yayımlar sürətli və şəffaf açıqlama vermək üçün ən effektiv vasitələrdən biridir. Belə hallarda rəsmi mövqe gecikmədən faktlara əsaslanan məlumat təqdim edilməlidir. Həmçinin, auditoriyanın sualları açıq şəkildə cavablandırılmalıdır. Şəffaflıq reputasiyanın qorunmasının əsas şərtidir.

Səhiyyə sektorunda canlı efirlərin əsas məqsədi reklam deyil, cəmiyyətin sağlamlıq savadlılığını artırmaqdır. Profilaktik müayinələrin əhəmiyyəti, düzgün həyat tərzi, erkən diaqnostika və müasir müalicə üsulları barədə məlumatların birbaşa çatdırılması həm sosial məsuliyyət, həm də effektiv PR nümunəsidir.

Bu format həkimlə vətəndaş arasında psixoloji məsafəni azaldır, müraciət etməyi asanlaşdırır və açıq kommunikasiya mühiti yaradır. Sosial şəbəkələrdə canlı yayımlar müasir ictimaiyyətlə əlaqələrin dinamik və təsirli formasıdır. Düzgün planlaşdırılmış, peşəkar şəkildə təşkil olunmuş və səmimi təqdim edilmiş canlı efirlər təşkilatın reputasiyasını möhkəmləndirir, ictimai etimadı artırır və davamlı kommunikasiya platforması yaradır. Canlı ünsiyyət informasiya deyil, münasibət yaradır. Müasir PR isə məhz bu münasibətlərin üzərində qurulur.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Başqasına görə zamin durmayın - əmlakınızı əlinizdən ala bilərlər!




Bank və maliyyə qurumları tərəfindən kreditlərin verilməsi zamanı zaminlik tələbi irəli sürülür. Kredit götürən şəxs öhdəliyini yerinə yetirmədikdə məsuliyyət zaminin üzərinə keçir və bu, onun üçün hüquqi və maliyyə çətinlikləri yaradır. Bu səbəbdən zaminlik məsələsi kredit münasibətlərində mühüm yer tutur. Zamin olan şəxs kredit borcuna görə məsuliyyət daşıya bilər və bu, onun gəlirinə və əmlakına təsir göstərə bilər. Ona görə də zaminlik qərarı verilərkən bütün risklər diqqətlə qiymətləndirilməlidir.

Zaminlik haqqında risklərlə bağlı Demokrat.az-a açıqlamasında vəkil Əkrəm Həsənov bildirib ki, başqasına zamin duran şəxs öhdəlik götürür ki, kredit götürən şəxs borcu vaxtında ödəməzsə, bank və ya bank olmayan kredit təşkilatı məhkəmə yolu ilə həmin borcu zaminindən tuta bilər:

"Əgər borclu şəxsdən vəsaiti tam və ya qismən almaq mümkün olmazsa, borc zaminin üzərinə yönəldilə bilər. Zamin daha sonra ondan tutulan məbləği, borclunun ödəniş qabiliyyəti varsa, həmin şəxsdən tələb edə bilər. Buna görə zamin duran şəxslərə birinci növbədə tövsiyə olunur ki, sabah həmin məbləğin onlardan tutulması onları çətin vəziyyətə salmayacaqsa, zaminlik etsinlər. Əks halda zaminlik qərarı diqqətlə düşünülməlidir. Zamin olan zaman borcun məbləğinə, valyutasına, faiz dərəcəsinə mütləq baxılmalıdır. Zaminlikdən imtina etmək isə mümkün deyil".

# "Qalatasaray"a Çempionlar Liqasından FANTASTİK GƏLİR

"Qalatasaray" UEFA Çempionlar Liqasında "Yuventus"la qarşılaşmadan əvvəl artıq 42,5 milyon avro gəlir əldə etmişdi. Turnirə birbaşa vəsiqə qazanan "sarı-qırmızılar" iştirak payı olaraq 18,62 milyon avro qazandı.

"Yuventus"u kənarlaşdıran "Qalatasaray"ın gəliri rekord həddə çatıb. Liqa mərhələsində keçirdiyi 8 oyundan 3 qələbə və 1 heç-heçə əldə edən komanda, bu performansı ilə 7 milyon avro qazandığı halda, liqadakı sıralamasına görə 5,08 milyon avro gəlir əldə edib.

Yayımı hovuzunun dəyərləndirilməsindən 6,41 - 10,41 milyon avro (orta hesabla 8,41 milyon avro) qazanan İstanbul klubunun UEFA əmsalı payına düşən məbləğ isə 2,42 milyon avro oldu. "Sarı-qırmızılılar" son 16 pley-off mərhələsinə qaldığı üçün 1 milyon avroluq gəliri də büdcəsinə əlavə etmişdi. "Qoca sinyora"nı keçərək növbəti mərhələyə yüksələn "Qalatasaray" 11 milyon avroluq mükafatı da əldə edib. Beləliklə, komandanın bu mövsümkü ümumi gəliri 53,5 milyon avroya çatdı.





**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

**Simli alətlər kafedrası**
**Dosent**

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.


## TƏBRİK EDİRİK

FM şirkətinin lideri İldüzə xanım Əzizovanın ad günüdür. Bu münasibətlə onu şirkətin rəhbəri Firuz Məhərrəmov, əməkdaşlardan Dəyanət, Bəykişi, Vasif, Səltənət, Məhbubə, Gülüş, Rəsmiyyə, Sahibə, Dilbər, Ulduz, Ənvər, Həcər və başqaları təbrik edirlər. İldüzə xanıma, xoşbəxt, firavan, sağlam ömür, səmərəli yaradıcılıq uğurları arzulayırıq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**